
OKTYABR-2024-AYLIQ KOMİKS JURNALI-WWW.INSANEJURNAL.COM

İNSANE



PATRiOT FASHiON






FASHION






PATRiOT FASHiON

FASHION







ODLAR
YURDU

İNSANE

OSTURAQ HAQQINDA

RAZMIŞLENİYALAR



GÖRƏSƏN İNSAN VÜCUDUNUN ƏN TƏBİİ
EHTİYACLARINDAN OLAN, ELMİ DILLƏ DESƏK,
ANAL DƏLİKDƏN QAZ İFRAZ ETMƏ,
ADAM KİMİ DESƏM "OSTURAQ" NİYƏ BELƏ
KƏDƏRLİ TALEYƏ, AŞAĞILAMA, ALÇALDILMA,
TƏRK EDİLMƏYƏ MƏRUZ QALIB?

ÜMUMİYYƏTLƏ OSTURAĞIN TƏRK EDİLMƏYƏ
MƏRUZ QALMASI NƏ BİLİM VALLA
AXI O ÖZÜ ELƏ BIR TƏRK EDİŞDİR...

NƏYSƏ ƏŞİ, SÖZÜM ONDADIR Kİ, BAX ASQIRIRIQ,
HIÇQIRIRIQ, GƏYİRİRİK, İŞİYİRİK, SIÇIRIQ, LAP YERİ
GƏLƏNDƏ NALAYİQ İFADƏLƏR, SÖYÜŞLƏR İFRAZ
EDİB BİR-BİRİMİZİN XƏTRİNƏ DƏYİRİK.
HEÇ BUNLARA MIZ QOYAN, BARMAQ ELƏYƏN,
YABA GÖTÜRÜB ÜSTÜNƏ CUMAN YOXDU..
AMMA Dİ GƏL Kİ BİR DƏNƏ ZIRTIN, PIRTIN, FISSIN,
ZARTIN VƏYA ZURTUN ÜSTÜNDƏ NƏ QÜRURLAR
SINIR, NƏ HÖRMƏTLƏR DÜŞÜR, NƏ XARİZMALAR
TULLANIR ZİBİL QABINA.



ARADA FİKIRLƏŞİRƏM Kİ, GÖRƏSƏN BAŞQA PLANETDƏN GƏLİB BİZİM BU HALIMIZI GÖRSƏYDİ İNAKLANETNI QƏRDEŞDƏR OXUYET ELƏYƏRDİMİ ? TƏSƏVVÜR EDİN, BİR QRUP EKSTRATERRESTRİAL ALİM EKSPEDİSİYA XARAKTERLİ YER PLANETİNƏ GƏLİR, VƏ ARAMIZDA FIRLANARAQ BU MƏNZƏRƏNİ MÜŞAHİDƏ EDİR. HƏTTA DAHA DƏHŞƏTLİSİ BİZDƏN ÇOX DAHA, QAT-QAT ÜSTÜN TEXNOLOGİYAYA MALİK BU YADPLANETLİLƏR GƏLİB BİZİM BU ACİZ DAVRANIŞIMIZDAN KAYF TUTUR.. ELMİ DİLLƏ DESƏK HƏZZ ALIR.



BİLİRƏM JURNALIMIZI OXUYAN YÜKSƏK İNTELLEKTUALLI İZLƏYİCİLƏRİMİZ MƏNƏ BURDA BİR DƏNƏ "Ə BİR DAYAN GÖRƏH, DAHA DZİDDİ MÖVZULAR YOXDUMU AYQA ? DÜNYA DAĞILER BU MANQA BURDA OSTURAXDAN ZƏVZƏYZƏHZƏH" KİMİ MÖHTƏŞƏM VƏ ÇOX YERİNDƏ İRADLAR BİLDİRƏ BİLƏRLƏR.

YOXDUR QARDAŞ.. BUNDAN DAHA CİDDİ NƏ OLA BİLƏR AXI.. BİZ ÖZ ORQANIZMIMIZI OLDUĞU KİMİ QƏBUL EDİB ONUN AĞIR, NƏ QƏDƏR KEÇİCİ OLSA DA BU ÜRƏKBULANDIRAN VƏ BAŞAĞRIDAN FƏSADLARI İLƏ ÜZLƏŞIB ONLARI QƏBUL EDƏ BİLMİRİKSƏ ƏLBƏTTƏ NƏ SEVƏ, NƏ SEVİLƏ, NƏ İLHAMƏ QULİYEVADAN ZÖVQ ALA, NƏ DƏ TOYDA ŞALVARI KÖYNƏYİN İÇİNDƏN ÇIXARDIB LAMBADA OYNAYA BİLMƏRİK. ÖZÜMÜZÜ SIXDIQCA SIXIB, SIXILDIQCA DAXİLDƏN DAHA DA QATILAŞAN BU ZƏHƏRİN TƏSİRİ İLƏ İNTOKSİKLƏŞMIŞ VÜCUD VƏ ŞÜURUMUZLA ƏTRAFA QARŞI DA TOKSİK OLACIYUĞ.. HƏYLƏ DƏYİLMİ ?



LAP TƏSƏVVÜR EDƏK Kİ, GƏLİBLƏR BİZİM PLANETİ ƏLƏ KEÇİRİB, BİZİ DƏ ƏLƏ SALALAR.. ƏLƏ-BELƏ KAYF-LARINA DÜŞÜB OSTURAĞ ÜZRƏ İDMAN YARIŞLARI TƏŞKİL EDƏLƏR, **OSTURMASIYA** İDMAN NÖVÜNÜ DƏ ALİMPİYSKİ IDMAN ELAN EDƏLƏR.. HƏM ALİMPİYA KAMİTƏSİNİN SƏDRİNİN TAM MƏZMUNU AXİR Kİ, YERİNƏ OTURMUŞ OLAR.. HƏM DƏ BU DİSİPLİNDƏ ƏN UZUN, ƏN İYLİ, ƏN SƏSLİ OSTURAN ÇEMPİONLARA MAL-MÜLK-DÖVLƏT-HURİ- DAY CANIM SƏNƏ DESİN ÖMÜRLÜK **MAKDONALDSDAN PULSUZ QAMBURGER**, AZPETROLDAN BENZİN, GÖMRÜK KOMITƏSİNİN SƏDR MÜAVİNİ VƏZİFƏSI - NƏ İSTƏYİRSƏN VERƏLƏR..

İNDİ SİZ OLUN SİZ, MƏN DƏ OLUM İNSANE..
BU MƏXLUQAT Kİ, VAR, İNSAN ADLI, USTALAŞMAZMI, MƏŞQ EDİB MÖHKƏMLƏNMƏZMİ BU YOLDA? GÖTÜNÜ BAŞINDAN DAHA ÇOX MƏŞQ ELƏTDİRİB SÖZÜN ƏSL MƏNASINDA **GÖTBAŞ** OLMAZMI, AY MƏNİM ƏZİZLƏRİM?



BURDA AŞIĞIN BİR BEYTİ NƏTTƏR DƏ YERİNƏ DÜŞÜR, ŞAİR DEYİR:

> İÇINDƏKI MƏHƏBBƏTI İNSAN GƏRƏK BASDIRMASIN,
> O YAR NƏ YARDIR KI, ELƏ.. YAR YANINDA OSTURMASIN



REDAKSIYAMIZ ADINDAN BÜTÜN DÜNYA ZAQSLARINA MÜRACİƏT EDİRİK, O MƏŞHUR "HƏ/YOX" SUALINI VERƏNDƏ, AĞIR GÜNDƏ, ÇƏTİN GÜNDƏ, VARLILIQDA KASIBLIQDA, GÜL-ÇİÇƏHDƏ VƏ OSTURAĞDA BİR YERDƏ OLMAĞA ƏHD.. ŞƏKLİNDƏ... XAHİŞ EDİRİK...
MAÇ ELIYİRİK... QUJAXLIYIRIX...

FEYZI

XARİCİ XƏBƏRLƏR














XARİCİ XƏBƏRLƏR



DAXİLİ XƏBƏRLƏR











DAXİLİ XƏBƏRLƏR





TAK-TAK

GiR İÇƏRi!!!

AH-AH-AH

CƏNAB PREZiDENT, GƏLMƏK OLAR...

YA-YA

AAAA!!!!

QOCALIĞI SEKSLƏ MƏŞĞUL OLANDA HİSS EDİRSƏN...

HMMM...

DANIŞ GÖRÜM NƏ YENİLİK VAR...

CƏNAB PREZİDENT, PEYVƏND İŞLƏRİNƏ BAŞLANILIB. ARTIQ HƏBSXANALARDA BÜTÜN MƏHBUSLARA VAKSİN VURULUB. HƏTTA MÜXALİFƏTÇİ DUSTAQLAR DALBADAL SİZƏ ƏHF ƏRİZƏSİ YAZIRLAR. HAL-HAZIRDA ƏHALİNİN PEYVƏNDLƏNMƏSİ PROSSESİ GEDİR.

ÖLKƏ ÜZRƏ 6329 PEYVƏND MƏNTƏQƏLƏRİ YARADILIB. VAKSİN VURULAN VƏTƏNDAŞLARA MASKASIZ, SƏRBƏST KÜÇƏDƏ GƏZMƏYƏ İCAZƏ VERMİŞİK Kİ, DİGƏRLƏRİ DƏ KÖNÜLLÜ GƏLİB PEYVƏND OLUNSUNLAR...

POX YEYİRLƏR. HƏRDƏN PEYVƏND OLUNANLARA DA İLİŞİN Kİ, AZADLIĞI HİSS ETMƏSİNLƏR..

MASKA TAXMAQDAN BEZMİŞƏM. HƏLƏ ÜSTƏLİK KÜÇƏDƏ SƏRBƏST GƏZƏ BİLMİRİK. VAKSİN VURDURANLAR KEF EDİR.

EYYY!!!

DANQ!

MİLLƏT, ZZ-ÇİLƏR GƏLİRLƏR!!!

ONLAR ARTIQ BURDADILAR. TEZ MASKALARI TAXIN!!! POXDAYIQ...

OYYY

HEÇ KİM YERİNDƏN TƏRPƏNMƏSİN. PEYVƏND VƏSİQƏNİZ YOXLANILACAQ.

TFU!!!

NG-NG-NG

SİZ BİZİM AZADLIQ HÜQUQLARIMIZI....

ARTIQ SÖZ-SÖHBƏTƏ EHTİYAC YOXDUR. DOVŞANLIQ ETMƏYİN....


XRRR!!!
???
NƏRGİZ, YAXŞI Kİ, GEDİRİK VAKSİN VURDURMAĞA. Z-VAKSİNİN ADAMI ZOMBİYƏ ÇEVİRMƏSİNƏ İNANMIRAM. UYDURMADIR...
PRESS
PEYVƏND MƏNTƏQƏSİNƏ YAXINLAŞIRIQ...


NƏ DANIŞIRAN? QARAXAN KİMİ RADİKAL ADAM PREZİDENTƏ ƏHF ƏRİZƏSİ YAZIB. DEYİLƏNƏ GÖRƏ İLK VAKSİNİ ONA VURUBLAR. İNDİ İSƏ BÜTÜN SİYASİ MƏHBUSLAR ƏHF ƏRİZƏSİ YAZIRLAR. BU TƏSADÜFƏ OXŞAMIR...


XXXX!


YAŞASIN PREZİDENTİMİZ!!! O, OLMASAYDI VİRUS BİZİM NƏSLİMİZİ KƏSƏRDİ. PREZİDENTİMLƏ FƏXR EDİRƏM. YAŞASIN MÜZƏFFƏR!
QONŞUMUZ AKİF DAYI... O, BELƏ DEYİLDİ...
??

BURADA NÖVBƏYƏ DURUN. BİR-BİR KEÇİB PEYVƏND OLUNACAQSIZ.

XXX

TFUU

Bİ ŞEY FİKİRLƏŞMƏK LAZIMDI...

VƏTƏNİN SABİTLİYİ VƏ TƏHLÜKƏSİZLİYİ NAMİNƏ HAMIMIZ PEYVƏND VURDURAQ!

PEYVƏND MƏNTƏQƏSİ

HMMM

BAX, VAKSİN VURDURANLARDI... FİKİR VER, ONLAR ÖZLƏRİNİ ÇOX QƏRİBƏ APARIR...

LİDERİMİZİN ƏTRAFINDA SIX BİRLƏŞMƏLİYİK!!!

ŞİMALSTAN DÜNYANIN LİDER ÖLKƏSİDİR!!! YAŞASIN PREZİDENTİM!

HƏHƏHƏ

ÇIXIŞ

UŞAQLAR BİZ BURDAN MÜTLƏQ QAÇMALIYIQ...

PRESS

NƏRGİZ, ZZ-ÇİLƏRİN BAŞI QARIŞAN KİMİ MƏHLƏYƏ TƏRƏF QAÇIRIQ. AYXANA DA ÇATDIR...

AYXAN VAKSİN VURDURMAQ İSTİYİR.

GIJDILLAX CAMAATA KƏRKİNMƏ!

???

TEZ OLUN, TEZ OLUN...QAŞDIX ...

BİJBALALAR QAŞDILAR! DAVAY, GƏLİN!!!

UŞAQLAR DAR KÜÇƏYƏ GİRƏK...

GƏLİN BURDA GİZLƏNƏY!!!

XPPP

OHHH

??

ARDI VAR...

CAST

BİR BAŞ ROLLARDA



TƏPƏGÖZ
FEYZİ
TAXTABAŞ

SƏN DƏ BU DƏLİXANAYA QOŞULMAQ İSTƏSƏN
VƏ YA DEMƏYƏ SÖZÜN, SAĞLIĞIN VARSA,
YAZ:

İNSANEJURNAL@GMAİL.COM

INSANEJURNAL.COM

2024